**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXS**

**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**__________ professor C.E.Mahmudova**

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

# BEYNƏLXALQ LAYİHƏLƏR VƏ ƏCNƏBİLƏRLƏ İŞ ŞÖBƏSİNİN ƏSASNAMƏSİ

Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin Elmi Şurasının
12 sentyabr 2023-cü il tarixli iclasının
1 №-li protokolu ilə təsdiq edilmişdir.

BAKI 2023

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1** Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi (bundan sonra – Şöbə) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (bundan sonra – Universitet) beynəlxalq layihələr və əcnəbilərlə bağlı fəaliyyətini heyata keçirir və vəzifə bölgüsünə görə Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoruna tabedir.

**1.2** Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında" qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Elm və Təhsil Nazirliyinin əmr, təlimat və Kollegiya Qərarlarını, digər müvafiq qanunvericilik aktlarını, ADMİU-nun Nizamnaməsini, Elmi Şuranın qərarlarını, təhsil, elm və innovasiyalar, inzibat-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ-hüquqi aktları, rektorun əmrlərini və bu Əsasnaməni rəhbər tutur.

## 2. ŞÖBƏNİN STRUKTURU

**2.1** Şöbənin rəhbəri və digər əməkdaşları rektor tərəfindən təyin edilir.

**2.2** Şöbəyə rəhbərliyi onun müdiri həyata keçirir və bilavasitə ADMİU-nun Beynəlxalq əlaqələr üzrə prorektoruna tabedir.

**2.3** Şöbənin müdiri:

**2.3.1.** ADMİU-nun işə qəbul prosedurunа müvafiq olaraq rektor tərəfindən vəzifəyə təyin olunur.

**2.3.2.** ali təhsilli, təhsil sahəsində, beynəlxalq əlaqələrin təşkili və ya beynəlxalq layihələrin idarə olunması ilə bağlı iş təcrübəsinə malik olmalıdır.

**2.3.3.** şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsində şəxsən məsuliyyət daşıyır.

**2.4** Şöbənin işçiləri ADMİU-nun işə qəbul və işdən azad etmə prosedurunа uyğun olaraq rektor tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

**2.5** Şöbənin əməkdaşlarının vəzifələri bu Əsasnaməyə, vəzifə təlimatlarına, həmçinin ADMİU-nun qarşısında qoyulan vəzifələrə uyğun olaraq bölüşdürülür.

## 3. ŞÖBƏNİN ƏSAS FUNKSİYALARI

**3.1** Universitetin beynəlxalq layihələr üzrə konsepsiyasını hazırlayır və həyata keçirir;

**3.2.** Universitetə əcnəbi tələblərin cəlb edilməsi üzrə kosepsiya hazırlayır və həyata keçirir;

**3.3.** Beynəlxalq elmi qrant müsabiqələrini və proqramları müəyyənləşdirir və iştirakı həyata keçirir;

**3.4.** Xarici qurum və müəssisələrdən gələn layihə, ortaq çalışma təkliflərin dəyərləndirir və müvafiq struktur bölmələrinə göndərir;

**3.5.** Xarici və yerli universitetlərin təcrübəsindən bəhrələnərək əcnəbi vətəndaşların Universitetə qəbuluna şərait yaradır;

**3.6.** Əcnəbi tələbələrlə bağlı təlim və tədrisin keyfiyyətinin artırılmasına nəzarət edir;

**3.7.** Şöbə öz fəaliyyətində dövlətlərarası və universitetlərarası müqavilələrdən, habelə hökumətin, Elm və Təhsil Nazirliyinin təhsil, mədəni və elmi əməkdaşlıq planlarından maksimum yararlanmağa çalışır;

**3.8.** Şöbə qeyd olunmuş sahələrdə öz vəzifələrini icra edərkən Universitetin digər şöbələri ilə qarşılıqlı əlaqədə fəaliyyəti təmin edir.

3.10. Layihələrin effektiv şəkildə idarəedilməsini təmin etmək;
3.11. Layihələrdə digər struktur bölmələrin iştirakını təmin etmək;
3.12. Qrant proqramları və layihələrlə bağlı məlumatı uyğun struktur bölmələrə göndərmək və iştirakına dəstək olmaq;
3.13. Əcnəbi vətəndaşlar üçün Universitet veb saytında dolğun məlumatlar yerləşdirmək;
3.14. Əcnəbi tələbələrin Universitetə müraciətini asanlaşdırmaq üçün elektron sənəd qəbulu prosesini inkşaf etdirmək;
3.15. Universitetə daxil olmuş əcnəbi tələbələrin qeydiyyata alınması, onların Universitet haqqında və daxili nizam-intizam qaydalar barədə məlumatlandırılmaq;
3.16. Qəbul olunmuş əcnəbi tələbələrin müvafiq sənədlərini hazırlamaq və tədris şöbəsinə təhvil vermək;
3.17. Əcnəbi tələbələrin Azərbaycanda müvəqqəti yaşaması üçün yaşayış icazəsinin alınmasına dəstək olmaq;
3.18. Universitetə qəbul olunmuş və təhsil alan əcnəbi tələbələrin sənədlərinin təhlükəsizliyin təmin etmək;
3.19. Universitetdə təhsil alan əcnəbi tələbələrin siyahısının hazırlanması və müvafiq qurumlara vaxtında çatdırmaq;
3.20. Universitetdə təhsil alan əcnəbi tələbə sayını artırmaq məqsədi ilə yeni təkliflər və strategiyalar hazırlayaraq rəhbərliyə təqdim etmək;
3.21. Universitet rəhbərliyinin və şöbənin əcnəbi tələbələrlə bağlı təsdiq etdiyi qərarların icrasını təmin etmək;
3.22. Şöbənin fəaliyyətini əks etdirən hesabatları hazırlamaq;

## 4. ŞÖBƏNİN HÜQUQLARI

4.1 Vəzifə və funksiyaların yerinə yetirilməsi üçün zəruri olan informasiya və sənədləri müvafiq struktur(lar)dan tələb etmək;

4.2 Struktur bölmə rəhbərlərindən işlərin (xidmətlərin) keyfiyyətinin artırılmasına istiqamətlənmiş tədbirlərin görülməsini tələb etmək;

4.3 Beynəlmiləlləşmə fəaliyyətləri, əcnəbi tələbələr və beynəlxalq layihələrin sayının artırılmasına dair təklifləri rektora və Elmi Şuraya müzakirə üçün təqdim etmək;

4.4 Fəaliyyət istiqamətlərinə uyğun olaraq rektorun əmri əsasında müxtəlif tərkibdən ibarət layihə komandaları qurmaq və onların fəaliyyətinə nəzarət etmək;

4.5 Universitetin struktur bölmələrininin fəaliyyəti ilə əlaqədar məsələlərin müzakirəsində iştirak etmək;

4.6 Səlahiyyətləri çərçivəsində xidməti yazışmalar aparmaq.

## 5. HESABATLILIQ

5.1. Şöbə öz fəaliyyəti barədə hesabatı Beynəlxalq əlaqələr üzrə prorektora və zəruri hallarda Elmi Şuraya təqdim edir.

## 6. ŞÖBƏNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

6.1 Struktur rəhbəri bu Əsasnamə ilə müəyyən olunan vəzifələrin icrasını təmin edir;
6.2 Struktur rəhbəri, işçilərinin vəzifə və hüquqları bu Əsasnaməyə istinadən rektor tərəfindən təsdiqlənən vəzifə təlimatları əsasında müəyyən olunur;

**6.3** Struktur vəzifə borclarının və funksiyalarının icrasını təmin etmək məqsədilə öz işini Universitetin digər struktur bölmələri, habelə Universitetin nəzdində olan təşkilatlar ilə qarşılıqlı əlaqədə qurur.

## *7. YEKUN MÜDDƏALAR*

**7.1** Bu Əsasnamə Universitetin Elmi Şurasının qərarı ilə rektor tərəfindən təsdiq edilir;

**7.2** Bu Əsasnaməyə əlavə və dəyişikliklər Universitetin Elmi Şurasının qərarı ilə edilir;

**7.3** Azərbaycan Respublikasının qanunvericiliyi, Universitetin Nizamnaməsi ilə bu Əsasnamənin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər;

**7.4** Azərbaycan Respublikasının qanunvericiliyinə dəyişiklik edilməsi nəticəsində bu Əsasnamənin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yaranarsa, həmin müddəa qüvvədən düşmüş hesab edilir.